

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 237 (21.898)

14 dekabr 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Dekabrın 13-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının hazırkı sədri Türkiyə Respublikasının təşəbbüsü ilə Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Zirvə toplantısında iştirak edib.

"Qüdslə həmrəylik üçün birlikdə hərəkət" devizi altında keçirilən Zirvə toplantısına 50-dək ölkədən dövlət və hökumət başçıları qatılıb.

Tədbir müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayıb.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə toplantısında çıxış edib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan ardıcıl olaraq Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Bir neçə il bundan əvvəl Azərbaycan Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransına və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransına ev sahibliyi edib.

Zirvə toplantısında İstanbul Bəyannaməsi qəbul olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri dekabrın 13-də başa çatıb.

## Soyuducu anbarlarda bol məhsul ehtiyatı yaradılıb




Əhalinin etibarlı ərzaq təminatı ilin bütün dövrlərində, xüsusən soyuq qış aylarında vacib məsələlərdəndir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında daxili bazarın yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə təmin olunması üçün görülən tədbirlər arasında soyuducu anbar komplekslərinin yaradılması mühüm əhəmiyyət daşıyır. Belə ki, soyuducu anbarlar məhsul tədarükü mövsümündə təzə meyvə-tərəvəzin münasib qiymətlərlə alınıb, qeyri-mövsümdə onun bazara çıxarılması üçün nəzərdə tutulmuş mühüm infrastruktur obyektləridir. Qiymətlərin əhalinin istehlak qabiliyyətinə uyğun saxlanılması və bazarda keyfiyyətli yerli məhsullara üstünlük verilməsi baxımından da soyuducu anbarlara diqqət böyükdür. Məhsulun tədarük vaxtı münasib qiymətlərlə alınmasında sahibkarların işinə stimul verir. Buna görə də hər il muxtar respublikada fəaliyyət göstərən soyuducu anbarlara məhsul tədarük olunması diqqətdə saxlanılır və satışa çıxarılan məhsulun həcmində də artım olur.

Soyuducu anbarlara tədarüklə bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumatda Sahibkarlığa Kömək Fondu vasitəsilə ayrılan güzəştli kreditlər və sahibkarların özlərinin şəxsi vəsaiti hesabına yaradılan anbarların ümumi sayının artıq 31-ə, onların ümumi tutumunun isə 14 min 30 tona çatdırıldığı bildirilir. Məlumatda əhali tələbatlarının ödənilməsi, qiymətlərin tənzimlənməsi və idxaldan asılılığın azaldılması məqsədilə 2017-ci ildə də soyuducu anbarlara kifayət qədər məhsul tədarük edildiyi və keyfiyyətinin daim nəzarətdə saxlanıldığı qeyd olunur. Bildirilir ki, 28 iyun 2017-ci il tarixdən 11 dekabr 2017-ci il tarixədək Naxçıvan Muxtar Respublikasındakı soyuducu anbarlara kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarlar tərəfindən istehsal edilmiş cəmi 4075,76 ton məhsul tədarük olunub. Bunun da 3079 tondan çoxunu kartof, 58 tondan çoxunu soğan, 40 tondan çoxunu ərik, 227 tondan çoxunu alma, 137 tondan çoxunu şaftalı, 9 tondan çoxunu kələm və digər məhsullar təşkil edir. Tədarük edilmiş meyvə-tərəvəz məhsullarından 2298 tondan çoxu artıq satılıb.

Məlumatda o da bildirilir ki, soyuducu anbarların imkanlarından səmərəli istifadə etmək məqsədilə sahibkarlarla qarşılıqlı razılaşma yolu ilə onlar məhsul istehsalçılarına icarəyə də verilir. Hazırda soyuducu anbarlarda bu yolla 203 ton məhsul saxlanılmaqdadır. Göründüyü kimi, Naxçıvandakı soyuducu anbarlarda kifayət qədər meyvə-tərəvəz məhsulu ehtiyatı yaradılıb. Bu da qış aylarında bazarda bolluq yaratmağa imkan verəcəkdir.

✍ Əli CABBAROV

## İctimai yaşayış binaları əsaslı şəkildə təmir olunur



Naxçıvan şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər ötən illərdə olduğu kimi, bu il də uğurla davam etdirilir. Yeni, hər cür şəraitə malik binalar inşa edilərək istifadəyə verilir, ehtiyac duyulan ictimai yaşayış binalarında yenidənqurma işləri aparılır. Eyni zamanda bir sıra binaların yaşayış sahəsi genişləndirilir, əlavə tədbirlər hesabına onların təməli möhkəmləndirilir. Bu işlər əhalinin yaşayış şəraitini maksimum səviyyədə yaxşılaşdırmaqla bərabər, həm də şəhərimizin bir çox ünvanına yeni çalarlar bəxş edib.

Bu tədbirlərin davamı olaraq oktyabr ayının əvvəlindən Naxçıvan şəhərinin "Əlincə" məhəlləsindəki 9 mərtəbəli yaşayış binasında da təmir-bərpa işlərinə başlanılıb. İşləri "Cahan" İnşaat Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi həyata keçirir. İş icraçısı Fuad İsmayılovdan aldığımız məlumata görə, bu günə qədər binanın fasad hissəsi üzlənib, dam örtüyü yenisi ilə əvəzlənib, fasad hissəyə düşən pəncərələr dəyişdirilib. Elektrik və rabitə xətləri çəkilib, mərkəzləşdirilmiş antena sistemi yaradılıb. Binanın zirzəmisində istilik və kanalizasiya xətləri yenilənib. Hazırda binanın birinci mərtəbəsi üzlük daşlarla bəzədilir, zirzəmidə suvaq, giriş hissədə təmir işləri görülür, pilləkənlərə döşəmə daş vurulur.

* * *

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da bu quruculuq tədbiri diqqət mərkəzində saxlanılıb. Belə ki, rayon mərkəzindəki Heydər Əliyev prospektindəki beşmərtəbəli, 35 nömrəli bina da əsaslı təmir olunur.



Artıq binanın təmirində nəzərdə tutulmuş əsas inşaat tədbirləri yekunlaşdırılıb. Dam örtüyü, qapı və pəncərələr dəyişdirilib, fasad hissəyə milli ornamentlərə uyğun travertin üzlüklər çəkilib, bütün kommunikasiya xətləri təzələnib, dəhlizlərə üzlük plitələr düzülüb. 60 ailənin sevincinə səbəb olan daha bir yenilik isə mənzillərin fasiləsiz olaraq ekoloji cəhətdən saf içməli su ilə təmin olunmasıdır.

Hazırda həyətdə abadlıq, yaşıllaşdırma işləri görülür.

*"Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən abonentlərə göstərilən xidmət yaxşılaşdırılır, istehlakçılar fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin olunurlar. Bununla yanaşı, həm də əhali qrupu üzrə təbii qaz istehlakçılarının müasir standartlara cavab verən texnologiyalardan istifadə etməsi məqsədilə ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılması tədbirləri həyata keçirilir.*

## Qaz təchizatı sistemi müasirləşdirilir

Birliyin mətbuat xidmətindən aldığımız məlumata görə, təbii qazın dayanaqlı olması üçün Naxçıvan şəhərində smartkarttipli qaz sayğaclarının quraşdırılmasına 2015-ci ilin yay aylarından başlanılıb. Türkiyə istehsalı olan sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçirilir. Bu sayğacların əsas xüsusiyyəti abonentlərin mavi yanacaqla təminatını öncədən ödənişini və istehlakçıların təbii qazdan təhlükəsiz istifadə etmələrini həyata keçirməkdir. 2015-ci ildə 7921, 2016-cı ildə 5731, 2017-ci ilin 11 ayı ərzində 2131 ədəd, ümumilikdə isə cari ilin noyabr ayının 1-nə qədər 15 min 783 ədəd smartkarttipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb. Cari ilin dekabr ayı ərzində 300 ədəd smartkarttipli qaz sayğacının quraşdırılması nəzərdə tutulub.

Öyrəndik ki, gün ərzində birliyə abonentlər tərəfindən edilən müraciətlərin çoxu smartkartların koda düşməsi və pul yükləmələr ilə bağlıdır. Aparılan müşahidələr zamanı aşkar edilib ki, abonentlər onlara verilmiş smartkartlarla davranma təlimatını dərindən öyrənmədən sayğacda müəyyən əməliyyatlar edir və onu koda salırlar. Ehtiyatsız davranma, qaz xəttində sızmanın olması, mənzildə istifadə edilən cihazların sərfiyyatının sayğacın texniki parametrlərinə uyğun gəlməməsi, hər hansı bir müdaxilə, qeyri-qanuni qoşulma kimi hallar baş verdikdə sayğac koda düşür. Bu barədə məlumat müvafiq qaydada bazaya ötürülür. Koda düşərək bağlanan sayğacı abonentin hər hansı bir yolla işə salması mümkün deyil. Onlar bu zaman Naxçıvan Şəhər Qaz İstismar İdarəsinin 104 nömrəli fasiləsiz fəaliyyət göstərən qaynar xəttinə müraciət etməlidirlər.

Yeri gəlmişkən onu da qeyd edək ki, muxtar respublikada şəhər, rayon Qaz İstismar idarələrinin qəza dispetçer xidmətlərinə gün ərzində istər əhali, istərsə də qeyri-əhali təbii qaz istehlakçıları tərəfindən qaz sızması, qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər səbəblərə görə müxtəlif xarakterli çağırışlar daxil olur. Bu zaman dərhal hadisə yerinə gedilir, bütün işlər təlimata uyğun yerinə yetirilərək təhlükəsiz və fasiləsiz təbii qazın nəqli bərpa olunur.

Məlumat üçün bildirək ki, əvvəlcədən ödəniş prinsipli elektron sayğaclarda istifadə olunan smartkartlara vəsaitlərin köçürülməsi üçün "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində 100 min abunəçiyə xidmət edən idarəetmə serveri və Naxçıvan şəhərində on bir ədəd yükləmə terminalı, eyni zamanda Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində Qaz sayğacı test qurğusu 4+4 stansiyası quraşdırılıb. Abonentlərin müraciətlərinə əsasən itirilmiş və ya zədələnmiş smartkartlar yeniləri ilə əvəz olunur.

Naxçıvan şəhərində müasir standartlara cavab verən ön ödəməli smartkarttipli qaz sayğaclarının quraşdırılması davam etdirilir.

✍ Gülcamal TAHİROVA

## Naxçıvan şəhərində yeni istehsal müəssisəsi fəaliyyətə başlayıb

*Naxçıvan şəhərinin Əliabad qəsəbəsində süd məhsulları istehsalı müəssisəsi fəaliyyətə başlayıb.*




İstehsal müəssisəsinin yaradılmasına Sahibkarlığa Kömək Fondu tərəfindən 251 min manat vəsait ayrılıb. Ümumilikdə isə müəssisəsinin işə salınmasına sahibkarın şəxsi vəsaiti də daxil olmaqla, 564 min manat vəsait sərf olunub.

Müəssisədə Türkiyə istehsalı olan ən müasir avadanlıqlar quraşdırılıb. Həmin avadanlıqların istehsal gücü 1 tona yaxındır. Burada istehsalda xammal kimi istifadə olunan süd muxtar respublikanın rayon və kəndlərində fəaliyyət göstərən fermer və fərdi heyvandarlıq təsərrüfatlarından alınır. İnsan orqanizmi üçün vacib elementlərlə zəngin olan 100 faiz təbii süddən xama, pendir, ayran, dovğa istehsal olunur və "Epi" əmtəə nişanı ilə daxili bazara çıxarılır.

Müəssisənin rəhbəri Elşad Məmmədovdan aldığımız məlumata görə, süd məhsulları istehsalı müəssisəsinin fəaliyyətə başlaması daxili bazarı yüksəkkeyfiyyətli məhsullarla təmin etməklə bərabər, əhalinin məşğulluq probleminin həllinə də öz töhfəsini verib. Belə ki, ilkin mərhələdə burada 10 nəfər işlə təmin olunub. Gələcəkdə işçilərin sayının daha da artırılması nəzərdə tutulur.

Xəbərlər şöbəsi

### *Balta yaman moddadır*

Builki şaxtalı qışda ən çox işlənən təsərrüfat aləti hansıdır? Əlbəttə, balta. 20-30 illik ağacların ömrünə vurulan balta. İndi kənd yerlərində çox adamların qoltuğunda balta görmək olar. Baxırsan ki, ikibir-üçbir cuqquldaşıb özlərini verirlər meşə zolaqlarına. Balta, mişar səsi, kökündən ayrılan ağacların "ahu-naləsi" qarışır bir-birinə. Qollu-budaqlı ağaclar yerə sərildikcə onlara sığınan körpə tinglər yetim qalmış balalar kimi əsməcə tuturlar. Sanki onlar bu titrəyişləri ilə deyirlər: "Bizi yetim qoyub hara gedirsən, ana?"

# Naxçıvan dünən

## Təbiətə isti münasibət və ya quru çöllərdən yaşıl meşələrə aparan yol

Vaxtilə əzəmətinə, gözəlliyinə tamaşa etdiyimiz ağaclara indi müştəri gözü ilə baxırıq: bax bu ağac bir həftə bəs edər, o birisi isə 15 gündən də çox görər. Beləcə, ağacların kökünə balta vururuq. Kimisi sevinir, kimisinin də ürəyindən qara qanlar axır. Bəziləri də bu ağacları əkib, onları ərsəyə gətirənlərə rəhmət diləyir. Bəli, ermənilərin törətdiyi müharibənin yurdumuza gətirdiyi bu bəlalı günlərdə yenə ümidimiz ağaclara gəldi. Ağaclar insanlara həyan oldu, həyatlarını onlara qurban verdi. İllərboyu qamətinə, gözəlliyinə heyran olduğumuz meyvə və bəzək ağacları bu gün minlərlə evin istisinə, işığına çevrildi. Bu sətirləri yazarkən camaatı da qınamaq istəmirəm. Nə etmək olar? Kömür yox, neft yox, qaz yox. Zavallı insan soyuqdan donmamaq üçün çarpışır, mübarizə aparır. Baxırsan ki, cavan bir qadın balaca uşağı ilə bərabər iri bir budağı sürüyüb aparır. Ağsaqqal kişi əl arabası ilə çırpı daşıyır. Nə etməli? Lənətə gəlsin bədnam, yüzsifətli qonşuları, bu müharibəni törədənləri. Amma nə qədər ağır olsa da, ağacları qorumalıyıq. Axı ağaclar bizim həyatımız, yaşayışımız, sağlamlığımızdır. Bir ağacı ərsəyə gətirmək üçün azı 15-20 il vaxt lazımdır. Gəlin heç olmasa, o körpə tinglərə qıymayaq. Cah-calalı dağılmış, viran olmuş meşə zolaqlarının içərisindən tək-tük göyə boylanan köməksiz körpə tinglərə. Heç olmasa, kənd yollarındakı, dayanacaqlardakı ağaclara dəyməyək. Yayın qızmar günlərində körpələrimizə həyan olar, onlara sərinlik gətirər.

Çətin günün ömrü az olar. Budur, kiçik çillənin də qurtarmasına bir şey qalmadı. Bir azdan baharın ılıq nəfəsi duyulacaq, yamyaşıl yamaclar, laləli-nərgizli dağ ətəkləri göz oxşayacaq. Lakin bu gözəlliyin içərisində məzar daşları kimi görünən ağac kötüklərinin miskin görkəmi illərboyu qəlbimizi ağrıdacaq.

***"Şərq qapısı" qəzeti, 13 fevral 1993-cü il***

***İnsanı təbiət yaratmış və öz sərvətlərini səxavətlə onun istifadəsinə vermişdir. 600 min ildən artıqdır ki, müasir insanla təbiət arasındakı münasibət müəyyən nisbətdə davam edir. Bəşəriyyət öz inkişafının yüksək pillələrinə ayaq qoyduqca, bu nisbət müəyyən mənada insanların xeyrinə dəyişir. Başqa sözlə desək, Yer üzündə əhalinin sayı artdıqca və insan öz əlində daha mükəmməl texniki vasitələr cəmləşdirdikcə təbiətdən çox mənfəət götürür, müqabilində isə ona az şey verir, insan təbiəti dəyişdirir, qırır, tökür, dağıdır, əvəzini qaytarmırsa, demək bu xeyrə dəyişmə əslində onun zərərinədir.***

***Akademik Həsən Əliyev***
***("Həyəcan təbili", Bakı, 1982-ci il)***

# və bu gün

## Dünənlə bu gün arasında salınan yaşıl körpülər

***Körpülər insanoğlunun ən yaradıcı kəşflərindən biridir. Bu qurğular insanlara gur çayların, hətta boğazların üzərindən keçməklə yeni məkanlar, yeni sivilizasiyaları tanımaq imkanı yaradıb. "Şərq qapısı" qəzetində dərc olunan, 90-cı illərin əvvəllərinin acı mənzərəsini gözlər önündə canlandıran yazını da bir körpüyə bənzətmək olar. Çünki bu körpü vasitəsilə biz keçmişə qayıdaraq Naxçıvan təbiətinin o illərdəki mənzərəsi haqqında ürəkağrıdıcı da olsa, məlumat ala bilirik.***

Əslində, bu problemin kökü ötən əsrin 90-cı illərinin əvvəllərinə deyil, daha əvvəllərə gedib çıxır. Çünki sovetlər dönəmində də Azərbaycan, eləcə də Naxçıvan təbiəti bir sıra problemlərlə üz-üzə qalıb. Zaman-zaman təbiətə qarşı edilən bu suiqəsdlərin qarşısının alınması üçün elm adamları öz haqlı səslərini ucaldaraq, ürək yanğısı ilə təbiətimizin məhvə doğru getdiyini bildiriblər. Təsadüfi deyil ki, akademik Həsən Əliyevin 1982-ci ildə işıq üzü görən "Həyəcan təbili" kitabında "Mineral sular, dadlı meyvələr diyarı" adlı yazıda görkəmli təbiətşünas-alim Naxçıvanın qəlboxşayan, füsunkar təbiətə, mineral sulara, müxtəlif dadlı meyvələrə malik olduğundan yazır, hələ o illərdə burada baş verən mənfi ekoloji dəyişikliklərdən söhbət açırdı. O qeyd edirdi ki, meyvə bağları Naxçıvanda 2500 hektar ərazini əhatə edir. Ancaq bu bağların ərazisini 3-4 dəfə artırmaq olar. Bundan başqa, alim müxtəlif dərman, yem bitkilərindən səmərəli istifadə yolları haqqında da ətraflı məlumat verir, şəhər və qəsəbələrin park və xiyabanlarının müxtəlif bəzək ağacları, eləcə də narbəndlə bəzədilməsinin vacibliyinə diqqəti çəkirdi.

Elm və texnikanın sürətlə inkişaf etdiyi, dünyada izaholunmaz təbiət hadisələrinin baş verdiyi, radiasiyanın insan sağlamlığı üçün real təhlükə yaratdığı, qlobal istiləşmənin planetimizin nizamını təhdid etdiyi, meşə yanğınlarının, sel daşqınlarının böyük itkilərə səbəb olduğu bir zamanda təbiətlə insan arasında min illərdir var olan tarazlıq pozulub vəziyyət təhlükəli bir hal alıb. Bu səbəbdən təbiətin amansız şəkildə istismarının qarşısının alınması üçün bir sıra beynəlxalq təşkilatlar ölkələri səfərbər edərək təbii sərvətlərin mühafizəsi, bu sərvətlərdən səmərəli istifadə olunması, xüsusən canlıların qorunması sahəsində təxirəsalınmaz tədbirlər görür, iqtisadi mənafelər baxımından mübahisəli məsələlərdə razılığa gəlirlər. Bu işlər artıq nəhəng bir miqyas alaraq ümumbəşəri hərəkata çevrilib. Azərbaycanın dilbər guşəsi olan Naxçıvan da bu hərəkatdan geridə qalmayıb, əksinə burada bir çox sahələrdə dünyanın əksər bölgələrinə nümunə olacaq tədbirlər həyata keçirilib.



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev təbiətin qorunub saxlanılmasının zəruriliyini qeyd edərək deyib: ***"Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifədir".*** 22 il əvvəl Naxçıvan meşələri barədə söhbət düşəndə ilk xatırladığımız meşə talalarında yanıb-qaralmış ocaq izləri, hara gəldi atılmış məişət tullantıları, qırılıb-çatılmış ağaclar, quru budaqlardan əmələ gəlmiş cəngəlliklər yada düşürdü. İş o yerə gəlib çatmışdı ki, şəhərətrafı ərazilərdəki meşə zolaqlarında yaşlı ağaclardan bircəciyi belə, qalmamışdı.

Müdriklərimiz, – meşə sudur, su məhsuldur, məhsul isə həyatdır, – deyiblər. Elə biz insanları da həyata bağlayan, ciyərlərimizi təmiz havayla yaşadan da yaşıllıqlar, o cümlədən meşələrdir. Meşələr həm də gur bulaqların, çayların mənbəyidir.

Naxçıvanın enerji problemi tədricən həll olunduqdan sonra meşə təsərrüfatının da bərpasına başlanıldı. İlk zamanlarda yaşıl ərazilər Naxçıvanın cəmi 0,6 faizini təşkil edir və bu göstərici qədim diyarımızın "yaşıl ciyərlərinin" nə qədər yaralı, acınacaqlı vəziyyətdə olduğunu gözlər önünə sərirdi. Ulu öndərimiz tərəfindən qısa müddətdə təbiətimizin mübtəla edildiyi bu mərəzin sağaldılması üçün məqsədyönlü tədbirlər həyata keçirildi, bu tədbirlər 1995-ci ildən sonra daha geniş vüsət aldı.

Görkəmli akademik Həsən Əliyev yazırdı: *"İnsan ömrünün uzadılması, onun sağlam və gümrah böyüməsinin təmin edilməsi, müxtəlif xəstəliklərin qarşısının alınması üçün, birinci növbədə, Vətənimizin yaşıl örtüyünü genişləndirmək, suyun, havanın təmizliyinin qeydinə qalmaq lazımdır. Çünki təbiətdəki bütün canlıların təmiz su ilə saf havaya əbədi ehtiyacı vardır. Burada hamının qarşısına belə bir sual çıxa bilər: bəs bunları kim etməlidir? Cavab qısadır: hamı! Hər bir insan öz kiçik və ya böyük fəaliyyəti dairəsində təbiətlə qarşılaşır. Bəziləri təbiət deyəndə hardasa üfüqün o tərəfində dağlardan-daşlardan başlanıb gələn çayları, şəhərdən uzaq meşələri*



*və sair nəzərdə tutur. Halbuki, təbiət elə bizim həyətimizdən, yaşadığımız küçədən başlayır. Təbiətə münasibət özünü bu başlanğıcda büruzə verir: həyətində neçə ağac əkmisən, küçənin təmizliyi üçün nə eləmisən? Gözünün qabağında şəhər ətrafına zibil boşaldanların qolundan yapışmısanmı?"*

Bəli, 22 il bundan əvvəl Naxçıvan təbiətinin yenidən həyata qaytarılmasına hamı cəlb edildi, iməciliklər vasitəsilə səhralaşmaya üz tutan ərazilər yenidən yaşıl dona büründü. Şəhər və kəndlərdə, park və bağçalarda, meşə zolaqlarında torpaqdan acizliklə baxan kötüklərin yanında balaca fidanlar boy göstərməyə başladı. Bu işlər mərhələ-mərhələ həyata keçirildikcə, təbiətə vurulan yaralar da sarıldı, insanlar onlara nəfəs verən təbiət qarşısında vicdan borclarını iməciliklərdə canla-başla çalışmaqla ödəməyə başladılar. Bəzi insanların "burada ağac bitməz", – deyib taleyin ümidinə buraxdığı torpaqlarda kiçik meyvə ağacları al-əlvan çiçəklərə bürünəndə bir çoxları anladı ki, yurd sevgisi, el birliyi, söz və əməlin vəhdəti qayalıqlarda belə, çiçək açdıra bilər. Ən diqqətçəkən məqamlardan biri də bu torpaqlarda təkcə təbiətimizə aid olan ağac və gül-çiçək kollarının yox, dünyanın müxtəlif guşələrindən gətirilən bitkilərin yerli təbii şəraitə uyğunlaşdırılması oldu. Bu proses uzunmüddətli zəhmət tələb etsə də, işlərin elmi əsaslarla və planlı şəkildə aparılması öz bəhrəsini verdi. Özünü bu torpaqda "qonaq kimi hiss edən" yüzlərlə bitki çox keçmədən qurumağa yox, məskunlaşmağa üstünlük verdi, bunun da nəticəsində şəhər və kəndlərimizin bağ-bağçaları, küçə və xiyabanları, yol kənarları bənzərsiz təbiət abidələri ilə bəzədilmiş yaşıl guşələrə çevrildi. İllər öncə akademik Həsən Əliyevin səsləndirdiyi "Həyəcan təbili"nin səsinə bütün Naxçıvan sakinlərinin elliklə diqqətlə yanaşması doğma diyarımızı əsrarəngiz flora və faunaya malik sıx meşələr, güllü-çiçəkli düzənliklər, Tanrının əvəzsiz qida ərməğanı balıqla zəngin olan çaylar və göllər məskəninə çevirdi. 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkının həyata vəsiqə alması, Şahbuz Dövlət Təbiət Qoruğunun, "Arazboyu", "Arpaçay" Dövlət Təbiət yasaqlıqlarının yaradılması təbiətimizə əvəzsiz töhfələr



oldu. Ulu öndərimizin ekoloji siyasətini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması da təbiətimizin qayğıkeşi olan görkəmli elm xadiminin arzularının gerçəkləşdirilməsinə töhfə idi. Bütün bunlarla bərabər torpaqların deqradasiyasının da qarşısı alındı, irimiqyaslı meliorasiya və irriqasiya tədbirləri nəticəsində yeni torpaqlar əkin dövriyyəsinə daxil edildi, sovetlər dövründə torpağa soyuq münasibət nəticəsində gübrə ilə həddən artıq "zəhərlənən" torpaqlara yeni həyat verildi. Suvarma üçün belə, yararsız hala gələn su mənbələrimiz təmizləndi, bu mənbələr regionun ən pak bulaqlarına, çaylarına, göllərinə çevrildi.

Bəli, Naxçıvanın yaşıllaşdırılması onilliklər ərzində davam etdi, meşəsalma və meşəbərpa işləri dünyanın bir çox bölgələrinə nümunə olacaq səviyyədə həyata keçirildi. Dünya təbiətsevərlərini, eləcə də muxtar respublikamıza gələn təbiətşünasların ən çox heyrətləndirən işlərdən biri də təkcə düzənliklərdə deyil, dağ yamaclarında terras üsulu ilə bağların salınması, onların damcı üsulu ilə suvarılması oldu. Yaz aylarında Naxçıvana turist səfərinə gələn qonaqların bu yamyaşıl, gül-çiçəkli terrasları dünyanın yeddi möcüzəsindən biri olan, "Allahın qapısı" adlandırılan Babil şəhərindəki Asma Bağlarına bənzətməsi də bir daha ondan xəbər verirdi ki, rəhbər qətiyyəti və əzmi, yurd-vətən sevgisi, insan əməyi Nuh Peyğəmbərin ayağı dəyən bu torpağı möcüzələr diyarına çevirə bilib. Bu bizim hamımızın nailiyyəti, hamımızın zəfəri, övladlarımızın sağlam gələcəyi üçün saldığımız yaşıl körpüdür. Artıq Azərbaycan təbiətinin bir parçası olan bu torpaqlarda "Həyəcan təbili" yox, ana təbiətə həyat verən "Zəfər təbili" səslənir. Bu həm də akademik Həsən Əliyevin təbiətimiz üçün arzularının qədim Naxçıvan torpağında reallaşdırılması, torpağımıza, suyumuza, canlılarımıza, ağaclarımıza, ümumilikdə isə sağlam gələcək yaşamaq, var olmaq imkanının yaradılmasıdır.

Yazımızı akademik Həsən Əliyevin bütün dövrlər üçün aktual olan fikirləri ilə başa çatdırmaq istədik: *"Bir şeyi yadda saxlamaq lazımdır: Yer üzərindəki bioloji mühit məhv olan deyil. Onun nizamının pozulması yeni bir mühit yaradıb, bu mühiti yaşada bilər. Qeyd edək ki, yerin geoloji tarixində belə hallar olmuşdur. Lakin mühitin dəyişdirilməsi bəşərin varlığını təhlükə qarşısında qoyur. İnsan özü-özünün keşikçisi olmalıdır. Heç bir başqa canlı onun harayına çatmayacaqdır. Ona görə də, bizcə, bu gün heç bir təşvişsiz, haraysız, həyəcan təbili çalmaq yerinə düşərdi. Bu "təbili" heç yerdən asmaq lazım deyil. O, müasir insanın ürəyidir. Bu ürək ətrafına daha həssas baxmalı, təbiətdən nəyi necə götürmək məsələsində həmişə, hər yerdə öz sözünü deməlidir. Bu münasibət üzərində yaşadığımız, havasını udduğumuz Azərbaycan təbiətinə daha çox aiddir. Azərbaycan təbiətinə kor-koranə bəslənilən münasibəti görəndə bu təbil daha böyük həyəcanla döyülməli, bizi ayıq-sayıq salmalıdır. Bəlkə də, toya, yasa və digər mərasimə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə çox yaşamağa yubanmaqdır..."*

**Səbuhi HÜSEYNOV**

## Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının XVII konfransı keçirilib

***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının XVII konfransı keçirilib.***

Konfransa şura sədrinin müavini Xatirə İbrahimli sədrlik edib. Konfransın gündəliyi təsdiq olunduqdan sonra Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzovun hesabat məruzəsi dinlənilib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası son beş ildə öz işini tədbirlər planı və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıq və tövsiyələri əsasında qurub, təşkilati baxımdan möhkəmlənərək ilk təşkilatların say tərkibini artırıb. Bu gün Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası 6 muxtar respublika, 10 birləşmiş Həmkarlar İttifaqları Komitəsini və 1500-dən çox ilk təşkilatı öz ətrafında birləşdirir. İttifaq üzvlərinin sayı 72 mindən çoxdur.



Muxtar respublikamızda əhalinin məşğulluğunun artırılması istiqamətində ardıcıl surətdə həyata keçirilən tədbirlər, yeni xidmət və istehsal sahələrinin yaradılması həmkarlar ittifaqları təşkilatlarının fəaliyyəti üçün geniş imkanlar açıb. Sucaxan Novruzov yaradılan bu şəraitə və Həmkarlar İttifaqları Şurasına göstərdiyi diqqət və qayğıya görə konfrans iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq bildirib.

Sonra məruzə ətrafında Təhsil İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri Səbuhi Hüseynovun, Tikinti-Memarlıq, Kommunal və İctimai Xidmət Müəssisələri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri Ceyhun Məmmədovun, Ordubad Rayon Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Mahir Şıxəliyevin çıxışları olub.

Konfransda Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası Məclisinin və İcraiyyə Komitəsinin yeni tərkibi səsə qoyularaq qəbul olunub.

Konfransda Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədrinin seçilməsi ilə bağlı Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri Rövşən Hüseynov çıxış edərək Novruzov Sucaxan Müseyib oğlunun namizədliyini irəli sürüb. Təklif səsə qoyularaq qəbul olunub.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov göstərilən etimada görə minnətdarlıq edib. Şuranın fəaliyyətini günün tələbləri səviyyəsində quracağını, Həmkarlar İttifaqları üzvlərinin hüquq və mənafelərinin qorunması istiqamətində məqsədyönlü tədbirlər keçirilməsini diqqət mərkəzində saxlayacağını bildirib.

Culfa Rayon Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Vahid Muradov çıxış edərək İbrahimli Xatirə Mikayıl qızının namizədliyini şuranın sədr müavini vəzifəsinə irəli sürüb. Təklif səsə qoyularaq qəbul olunub.

Gündəlikdə duran növbəti məsələ şuranın Təftiş Komissiyasının üzvlərinin yeni tərkibi barədə olub. Komissiyanın üzvlüyünə namizədlər səsə qoyulub və qəbul olunub. Akif Mahmudov Nəzarət-Təftiş Komissiyasının sədri seçilib.

Konfransda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Məclis üzvlüyünə namizədlər irəli sürülüb, təklif səsə qoyularaq qəbul edilib.

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının Məclisinə, İcraiyyə Komitəsinə yeni seçilən üzvləri təbrik edib və fəaliyyətlərində uğurlar arzulayıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, eləcə də şəhər və rayon birləşmiş həmkarlar ittifaqları dövlət qayğısı ilə əhatə olunub, onların fəaliyyəti üçün zəruri iş şəraiti yaradılıb. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində şura əməkdaşlarının əməkhaqqı 2016-cı ildə 10, 2017-ci ildə 15 faiz artırılıb, şura üzvləri fəxri adlarla təltif edilib, şuranın yubileyi qeyd olunub.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı, yeni müəssisələrin yaradılması həmkarlar ittifaqlarının fəaliyyətinə də geniş imkanlar açıb. Ötən illərin təcrübəsi göstərir ki, muxtar respublikanın həmkarlar ittifaqları yaradılan şəraitdən səmərəli istifadə edir, üzvlərin sosial hüquqlarının qorunması, onların sanatoriya-kurortlara göndərilməsi, istirahətlərinin təşkili istiqamətində məqsədyönlü fəaliyyət göstərir. Bununla yanaşı, Həmkarlar İttifaqları Şurasında gənclərin məsul işlərə cəlb olunmasına xüsusi diqqət yetirilir, idarə, müəssisə və təşkilatlarda ilk həmkarlar ittifaqları təşkilatlarının sədri vəzifəsinə irəli çəkilirlər.

Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransa Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov yekun vurub.

✍ **Nail ƏSGƏROV**

*Jurnalist araşdırması*

## Culfa dəmiryol stansiyası – Cənubi Qafqazın dəmir qovşağı



*Culfa-Təbriz dəmir yolunun istifadəyə verilməsi, 1915-ci il*

***Dəmiryol nəqliyyatı digər nəqliyyat növləri ilə müqayisədə hər zaman yük və sərnişin daşınmalarının həcminə, eyni zamanda təhlükəsiz mənzilbaşına çatdırılmasına görə seçilib. Ona görə də bu nəqliyyat növü mövcud olduğu bütün dövrlərdə ölkə iqtisadiyyatında mühüm yer tutub. Bu sahə, eyni zamanda strateji və siyasi tərəfləri ilə də hər zaman maraq doğurub. Azərbaycanda dəmiryol nəqliyyatının yaranması XIX əsrin ikinci yarısına təsadüf edir. Çünki ilk dəmiryollarının çəkilişi ölkəmizdə neft sənayesinin inkişafı ilə bağlı olub. Naxçıvanın isə mühüm geostrateji ərazidə yerləşməsi bu nəqliyyat dəhlizinin yaradılmasında məxsusi rol oynayıb. Xüsusilə keçmiş çar Rusiyasının İranla iqtisadi əlaqələrində Naxçıvanın əhəmiyyəti danılmaz fakt olaraq tarixin yaddaşına keçib. Naxçıvan dəmir yollarında isə Culfa stansiyası keçmişdən bu günümüzədək tranzit qovşaq kimi şöhrət qazanıb.***

Qeyd edək ki, 1902-ci ildə Aleksandropol-Uluxanlı-İrəvan dəmiryol xəttinin tikintisindən sonra Uluxanlıdan Culfaya dəmiryol xətti çəkilməyə başlanır. Uzunluğu 189 verst olan və Zaqafqaziya dəmiryollarının tərkibində sayılan bu xəttin çəkilişi 1908-ci il yanvarın 20-də yekunlaşdırılır. Culfa şəhərində yerləşən sinifsiz sahə tipli bu dəmiryol stansiyası isə 1900-1905-ci illər ərzində inşa edilib, 1908-ci ildən istifadəyə verilib. Həmin ildən Uluxanlı-Culfa xətləri üzərində fəaliyyət göstərən stansiya o dövrdə Rusiyanın İranla əlaqələrində mühüm qovşaq kimi maraq dairəsində idi. Buna görə də 1907-ci ildə Araz çayı üzərində yeni körpü tikilir və dəmiryol xətti də bu körpüdən keçməklə İran dəmiryolları ilə birləşir. Birinci Dünya müharibəsi dövründə, daha doğrusu, 1915-ci ildə Culfa-Təbriz dəmir yolu fəaliyyətə başlayır. Bu məqsədlə Rusiyanın Kolomenskiy zavodunda 1913-cü ildə istehsal olunmuş cəmi 4 ədəd parovozdan biri də Culfaya göndərilir. Naxçıvanda dəmiryollarının tarixi ilə bağlı elektron resurslarda araşdırma apararkən məlum oldu ki, Culfa-Təbriz dəmir yolunun açılışı o dövrdə təntənəli mərasimlə qeyd olunub. Çünki bu, kiçik məsələ deyildi, Rusiyanı Qafqazla birləşdirən dəmiryolları, nəhayət Culfa stansiyasından keçməklə İran ərazisinə daxil olurdu. Bu dəmir yolu istər ticari, istərsə də hərbi məqsədli yüklərin daşınmasında Rusiya üçün müstəsna əhəmiyyət kəsb edirdi. I və II Dünya müharibələri dövründə Rusiyanın (sonralar isə SSRİ-nin) geosiyasi maraqlarının müdafiə olunması baxımından bu nəqliyyat dəhlizinin istismarı əvəzolunmaz rol oynayıb. Buna görədir ki, Culfadan Təbrizə istiqamət götürəcək ilk qatarın yola salınmasından əvvəl stansiya binasının həyətindəki meydanda çar Rusiyasının hərbi qulluqçularının iştirakı ilə mərasim təşkil olunur. General N.Yanuşkeviç raportu qəbul etdikdən sonra mərasimdə sıra ilə düzülmüş hərbçilərlə salamlaşır. Sonra süvarilər təntənəli addımlarla generalın önündən keçirlər. Nəhayət, çar ordusunun general və digər rütbəli hərbçiləri qatara minərək İran ərazisinə yola düşürlər və Araz çayı üzərindəki körpünü keçdikdən sonra İran tərəfinin səlahiyyətli nümayəndələri ilə görüşüb birlikdə qatarla hərəkət edirlər. Təbriz şəhərində isə qatarı böyük insan kütləsi qarşılayır. Burada bir haşiyə çıxaraq bildirək ki, Culfa-Təbriz dəmir yolu xəttinin çəkilməsi, əslində, bundan da xeyli əvvələ planlaşdırılmışdı. Belə ki, 1872-ci ildə Tiflis-Poti dəmir yolu xətti çəkilib istifadəyə verildikdən sonra çar hökuməti Cənubi Qafqazın bütün bölgələrini, eyni zamanda İran və Türkiyəni faktiki olaraq bölgənin inzibati mərkəzinə çevrilmiş Tiflis şəhəri ilə birləşdirmək məsələsi üzərində işləməyə başlamışdı. Qafqaz canişinliyinin nəzdində yaradılmış xüsusi komissiyanın 1873-cü ildə keçirilmiş iclasında əvvəlcə Tiflis şəhəri ilə Culfa arasında, sonra isə Culfa ilə Təbriz şəhəri arasında dəmir yolu xəttinin çəkilməsi haqqında qərar qəbul edilir. Lakin Tiflisi Bakı şəhəri və onun vasitəsilə Rusiyanın mərkəzi



quberniyaları ilə birləşdirmək zərurəti Tiflis-Culfa dəmir yolu xəttinin, eləcə də Culfa-Təbriz dəmir yolunun çəkilişini ləngidir. Buna baxmayaraq, Bakı-Tiflis dəmir yolu xəttinin 1899-cu ildə başa çatdırılması Naxçıvan diyarının da dəmir yolu şəbəkəsi ilə əhatə olunması hazırlıqlarına rəvac verir. Bu işin birinci mərhələsi kimi 1899-1902-ci illərdə, yuxarıda da qeyd etdiyimiz kimi, Aleksandropol-Uluxanlı dəmir yolu xəttinin tikintisi həyata keçirilir. Bu xəttin tamamlanması Uluxanlı-Culfa dəmir yolunun tikintisinə başlamağa imkan verir. Yeri düşmüşkən onu da qeyd edək ki, Uluxanlı-Culfa dəmir yolunun tikintisi olduqca ağır şəraitdə həyata keçirilmişdi: bir tərəfdən Naxçıvanın sərt iqlimi, digər tərəfdən isə quldurların hücumları tikinti işlərinin gedişinə mənfi təsir göstərmişdir. Lakin bütün bunlara baxmayaraq, 1908-ci ildə uzunluğu 189 verst olan bu xətti istifadəyə vermək mümkün olur. Culfa dəmiryol stansiyasının və adıçəkilən dəmir yolu xəttinin istifadəyə verilməsi Rusiya ilə İran arasında gedən tranzit ticarətdə Naxçıvanın rolunu xeyli gücləndirir. Məsələn, təkcə 1908-ci ildən 1913-cü ilə qədər keçən qısa müddət ərzində Naxçıvan diyarı vasitəsilə aparılan Rusiya-İran ticarəti bir neçə dəfə artaraq 5 milyon 699 min 947 puda çatdırılır. Əgər 1908-ci ildə bu dəmir yolu vasitəsilə cəmisi 82 min pud pambıq ixrac edilmişdirsə, 1913-cü ildə onun həcmi, təxminən, 4 dəfə artaraq 318 min puda çatır.

Xatırladaq ki, Culfa dəmiryol stansiyası fəaliyyətə başladığı dövrdən etibarən əhəmiyyətli qovşaq kimi özünü təsdiq etmişdir. Cənubi Qafqazın içərilərinə və Rusiyaya ixrac edilmək üçün nəzərdə tutulan İran mallarının böyük əksəriyyəti Culfadakı gömrük-keçid məntəqəsindən keçirilirdi. Bu məntəqə vasitəsilə Naxçıvan ərazisinə daxil olan həmin mallar Culfa dəmiryol stansiyasında yük vaqonlarına yüklənərək Tiflis, Yelizavetpol və Bakı quberniyalarına, daha sonra isə Rusiyaya göndərilirdi. İrəvan quberniyasının 1914-cü ilə aid icmalında qeyd olunur ki, həmin il İrandan gətirilən malların 84,7 faizi Culfa gömrük-keçid məntəqəsinin payına düşmüşdü.

Beləliklə, Culfa dəmiryol stansiyası 1908-ci ildən Uluxanlı-Culfa, 1915-ci ildən Təbriz-Culfa, 1941-ci ildən isə Mincivan-Culfa xətləri üzərində fəaliyyət göstərmişdir. 1988-ci ildə dəmir yolunun Naxçıvan-Culfa xətti elektrikləşdirilmişdir.

Qeyd edək ki, Azərbaycanda dəmiryollarının əsl inkişaf dövrü ümummilli lider Heydər Əliyevin Azərbaycana hər iki rəhbərliyi dövrünə təsadüf etmişdir. Culfa stansiyasının beynəlxalq əhəmiyyətli stansiya olduğu nəzərə alınaraq sərnişinlərə xidmət səviyyəsini yüksəltmək məqsədilə bu stansiyada 1970-ci ildə "İnturist" istirahət evi tikilib istifadəyə verilmişdir. Yüklərin Azərbaycan Dəmir Yolundan İran Dəmir Yoluna daşınmasını təmin etmək üçün 1984-cü ildə Culfa stansiyasında 28 yoldəyişdiricisi olan vaqon parkı tikilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı"na uyğun olaraq Naxçıvan dəmir yolunun digər stansiyaları ilə yanaşı, Culfa dəmiryol stansiyasının vağzal binası da əsaslı şəkildə yenidən qurulmuş, bir əsrdən artıq yaşı olan bina ilkin görünüşü saxlanılmaqla, milli memarlıq nümunələri ilə zənginləşdirilmişdir. Bununla yanaşı, Culfa Lokomotiv Deposunun təmir sexi, Lokomotiv briqadalarının işinin idarə olunması mərkəzinin binaları müasir standartların tələblərinə uyğun əsaslı təmir olunaraq dəmiryolçuların istifadəsinə verilmişdir.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsinin Texniki-istehsalat bölməsinin rəisi Polad Hüseynov bizimlə söhbətində bildirdi ki, bu yaxınlarda Azərbaycan regionda mühüm bir layihəyə imza atdı. Böyük İpək Yolunun çox mühüm bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. Eyni zamanda hazırda "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin reallaşması çərçivəsində Azərbaycan Dəmir Yolunun İran dəmiryolları şəbəkəsi ilə birləşdirilməsi üçün Astara (Azərbaycan) və Astara (İran) dəmir yolu xəttinin çəkilməsi məqsədilə işlər sürətlə davam etdirilir. Sevindirici hal ondan ibarətdir ki, hər iki layihə Naxçıvan dəmiryollarını da özünə birləşdirəcəkdir. Elə bu səbəbdən də həmin layihələrin gerçəkləşdirilməsi üçün lazım olan bütün işlər görülmüşdür.

Onu da qeyd etmək yerinə düşər ki, elə bu layihənin gerçəkləşdirilməsi istiqamətində (yəni İran və Azərbaycan dəmiryollarının birləşdirilməsi) ilk addım 29 dekabr 2016-cı ildə atılmışdır. Belə ki, həmin tarixdə Naxçıvan-Məşhəd-Naxçıvan beynəlxalq sərnişin qatarı xəttə buraxılmışdır. Yaxın gələcəkdə Qarsdan Naxçıvana dəmir yolu xəttinin çəkilməsi isə Culfa dəmiryol stansiyasının, ümumilikdə isə Naxçıvanın strateji əhəmiyyətini daha da artıracaq. Ötən əsrin əvvəllərində olduğu kimi, Culfa dəmiryol stansiyasının beynəlxalq yük və sərnişin daşımalarında yenidən tranzit qovşağa çevriləcəyi gün uzaqda deyil.

✍ **Səbuhi HƏSƏNOV**

## Naxçıvanlı alimin beynəlxalq simpoziumdakı çıxışı maraqla qarşılanıb



Türkiyə Cümhuriyyəti Başbakanlığı Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumu Atatürk Araşdırma Mərkəzi və Girəsun Universitetinin birgə təşkilatçılığı ilə Türkiyənin Girəsun şəhərində "II Beynəxalq demokratiya simpoziumu: imperializm, hegemoniya və təhlükəsizlik fəaliyyətləri" adlı beynəlxalq elmi simpozium keçirilib. Türkiyə, Rumıniya, İran, İraq və digər ölkələrin tanınmış alimlərinin iştirak etdiyi tədbirdə Azərbaycanı üç elm xadimi təmsil edib. Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elman Cəfərli elmi simpoziumda "Sovet Rusiyasının imperialist siyasətində xalqların öz müqəddəratını təyin etməsi prinsipi və Cənubi Qafqazda muxtar dövlət qurumlarının yaradılması" mövzusunda məruzə ilə çıxış edib.

Qeyd olunub ki, 1920-ci illərdə Cənubi Qafqazda yaradılmış 5 ərazi muxtariyyətindən 2-si – Naxçıvan və Acarıstan Muxtar respublikaları tərkibində olduqları dövlətlərin, Azərbaycanın və Gürcüstanın ərazi bütövlüyünü təmin etmək üçün 1921-ci il Moskva və Qars müqavilələrinin şərtlərinə uyğun olaraq yaradılıb. Lakin keçmiş muxtariyyət olan Dağlıq Qarabağ imperialist məqsədlər naminə "parçala və hökm sür!" siyasətinə uyğun olaraq təşkil edilib. Belə ki, Qərbi Azərbaycan torpaqlarında 1918-ci ildə erməni dövləti yaradılmasına baxmayaraq, bu dövlətdən 10 kilometrdən də az məsafədə yenə Azərbaycan torpaqlarının bir hissəsində – Dağlıq Qarabağda ermənilərə öz müqəddəratını təyinetmə hüququ verilib. Bununla gələcəkdə milli münaqişənin yaradılmasına zəmin hazırlanıb.

Müzakirələrdə Elman Cəfərlinin slaydlarla birlikdə təqdim etdiyi məruzə orijinallığı və aktuallığı ilə seçilib, müəllifin elmi məqaləsinin simpozium materiallarında dərc edilməsi tövsiyə olunub.

Qeyd edək ki, simpoziumda müxtəlif ölkələrdən göndərilmiş 100-dən çox elmi məqalədən 49 müəllifin 45 məqaləsi müzakirə olunmaq hüququ qazanıb.

**Xəbərlər şöbəsi**

## "Kitabi-Dədə Qorqud" müzakirə olunub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətində həmin sərəncamla təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilən "Kitabi-Dədə Qorqud" kitabının müzakirəsi olub.***



Tədbirdə Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova, kitabxananın Kütləvi iş şöbəsinin müdiri Yeganə Rüstəmova, Naxçıvan Müəllimlər İnstitutunun professoru, filologiya elmləri doktoru Yusif Səfərov, AMEA Naxçıvan Bölməsi Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucovun çıxışları olub.

Çıxışlarda muxtar respublikamızda gənc nəslin dünyagörüşünü düzgün formalaşdırmaq, vətənpərvər ruhda yetişdirmək istiqamətində görülən işlərdən, "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamın əhəmiyyətindən bəhs edilib.

Diqqətə çatdırılıb ki, siyahıya daxil edilən kitablardan biri də təkcə Azərbaycan xalqının deyil, bütün Türk dünyasının möhtəşəm və əzəmətli tarixini yaşadan, onu bu günümüzə qovuşduran ulu sənət nümunələrindən biri və həm də birincisi "Kitabi-Dədə Qorqud" eposudur. Bu bədii söz xəzinəsi türk xalqlarının tarixi salnaməsi, həyat ensiklopediyası, Azərbaycan dilində yazılmış və azərbaycanlılara aid bir abidədir.

Bildirilib ki, "Kitabi-Dədə Qorqud" dastanı qəhrəmanlıq, igidlik, mərdlik, cəsurluq, dostluq, birlik dastanı olmaqla yanaşı, həm də namus, qeyrət, ləyaqət, insanpərvərlik kimi əxlaqi, milli və mənəvi dəyərlərlə zəngin olan və gənc nəslin tərbiyəsində mühüm rol oynayan böyük tarixi abidədir. Dastanda baş sərkərdədən tutmuş böyükdən-kiçiyə bütün qəhrəmanların doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə hazır olduqları nümayiş etdirilir.

Vurğulanıb ki, "Kitabi-Dədə Qorqud"un boylarında təsvir olunan hadisələr Qafqazın cənub ətəkləri və bütövlükdə Azərbaycan ərazisi ilə bağlıdır. Boylardakı əhvalatlar Kür-Araz düzənliyi, Şərur mahalı, Əlincəqala qoruqları, Dərəşam, Ağcaqala, Sürməli, Ağqaya kimi müxtəlif yerlərdə baş verir. Bu adda yerlər isə Naxçıvan ərazisində, Araz üstündə, Zəngilanda, Göyçə mahalında və digər bölgələrimizdə də var.

Sonda səyyar sərgiyə baxış olub.

**✍ Ramiyyə ƏKBƏROVA**

*Şəhərimizin qonaqları*

## Mədəniyyət kollektivlərinin çıxışları naxçıvanlılara bədii-estetik zövq bəxş edir



***Bu gün mədəniyyət və incəsənət muxtar respublikamızda, demək olar ki, sözün əsl mənasında, özünün tərəqqi dövrünü yaşayır. Tez-tez müxtəlif mədəniyyət müəssisələri tərəfindən konsertlər, tamaşalar hazırlanıb muxtar respublika sakinlərinə təqdim olunur. Bu da insanların asudə vaxtlarının səmərəli təşkilinə, onların mədəni-estetik zövqünün formalaşmasına böyük töhfə verir.***

Naxçıvan vaxtaşırı paytaxt şəhərimiz Bakıdan gələn qonaqlara, mədəniyyət, incəsənət adamlarına da ev sahibliyi edir. Əlamətdar günlərdə, müxtəlif bayramlar ərəfəsində müxtəlif kollektivlər, həmçinin vokalist və xanəndələr, görkəmli səhnə ustaları şəhərimizə qastrol səfərlərinə, naxçıvanlıların görüşünə gəlirlər. Belə səfərlər mütəmadi təşkil olunur. Elə bu yaxınlarda da Naxçıvanımız daha bir mədəniyyət tədbirinə ev sahibliyi edib. Azərbaycan Respublikasının Əməkdar artistləri Coşqun Rəhimov və Rafael İsgəndərovun hazırladıqları yeni səhnəciklər naxçıvanlılara təqdim olunub. Məlumat üçün bildirək ki, "Bu şəhərdə" qrupunun aktyorlarının şəhərimizə səfərləri artıq ənənə halını alıb. Şəhərimizin sakinləri bu il də ənənəyə sadiq qalaraq qonaqları hərarətlə qarşılayıblar.

"Bu şəhərdə" layihəsinin aktyorlarının yumoristik konserti dekabr ayının 9-u və 10-u olmaqla, iki gün şəhərimizdəki Heydər Əliyev Sarayında baş tutub. Dekabrın 10-da biz də tamaşaçı kimi konsertdə iştirak etdik. Sevimli aktyorlarını gurultulu alqışlarla yola salan tamaşaçılar yüksək əhval-ruhiyyədə idilər. Görünür ki, konsert-tamaşadan razı qalmışdılar. Aktyorlarla söhbət etmək, qonaqların təəssüratlarını öyrənmək üçün onlara yaxınlaşdıq.

Bildirdilər ki, Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayının səhnəsində ən çox konserti məhz elə "Bu şəhərdə" verib. 2007-ci ildən bu günə kimi ildə iki dəfə olmaqla, hər səfərdə 2-3 gün naxçıvanlıların görüşünə gəlirik.

"Bura bizə çox doğmadır", – deyən Coşqun Rəhimov onları da özlərinə doğma bildikləri üçün Naxçıvan sakinlərinə öz minnətdarlığını ifadə etdi.

"Hər dəfə buraya gələndə daha böyük məhəbbətlə qarşılanırıq", – deyən Rafael İsgəndərov isə Naxçıvanda konsert-tamaşaların ənənə halını almasında məhz elə sakinlərin bu sevgisinin əsas amil olduğunu vurğuladı.

Qeyd edək ki, layihədə cəmiyyətdə olan sosial problemlər, ailədə, iaşə obyektlərində baş verən hadisələr canlandırılır. Məqsəd isə bu nöqsanlara qarşı ictimai qınaq yaradaraq mənfiklikləri, çatışmazlıqları aradan qaldırmaqdır.

Yeni il ərəfəsinə təsadüf edən bu qastrol səfərindən, görünür, həm qonaqlarımız, həm də sakinlərimiz xeyli məmnun qalıblar. Lakin bu, hələ son deyil. Bu ərəfədə şəhərimiz paytaxt Bakıdan gələn digər qonaqları da qarşılayacaq, müxtəlif sənət adamlarının konsertlərinə ev sahibliyi edəcək. Artıq qastrola gələcək sənətkarlar və onların konsert tarixləri də müəyyənləşib, afişalar vasitəsilə anonslar verilib.

Biz də, öz növbəmizdə, muxtar respublika sakinlərinə xoş istirahət diləyirik.

**✍ Fatma BABAYEVA**

***Muxtar respublikamızın bütün bölgələrində əhalinin müxtəlif təbəqələri, o cümlədən orta məktəblərdə, xüsusi təmayüllü liseylərdə təhsil alan şagirdlərin keyfiyyətli tibbi xidmətlə əhatə edilməsi üçün mövcud olan potensialdan səmərəli istifadə olunur.***

## Liseydə tibbi müayinələr keçirilib



Ümumtəhsil məktəblərində kütləvi profilaktik tibbi müayinələrin aparılması muxtar respublikamızda bu istiqamətdə həyata keçirilən sosial siyasətin mühüm və başlıca tərkib hissələrindən biridir. Yeniyetmələr arasında profilaktik müayinələr zamanı gizli xəstəliklər vaxtında aşkar edildiyindən xəstənin tam sağalmasına nail olunur. Bu məqsədlə dünən Şərur şəhərində fəaliyyət göstərən Fizika-Riyaziyyat Təmayüllü Liseydə Şərur Rayon Mərkəzi Xəstəxanasının həkim heyəti tərəfindən 7-11-ci sinif şagirdləri profilaktik müayinələrə cəlb olunublar. Rayon Mərkəzi Xəstəxanasının həkim kollektivi gün ərzində 200-dək şagirdi müayinə edib, onlara müəyyən məsləhətlər veriblər. Şagirdlər arasında ciddi problemlər aşkar olunmayıb.

Aksiya xəstəxananın həkim-pediatrı Kəmalə Bağırova, nevropatoloq Zakir Mustafayev, burun-boğaz (Lor) həkimi Əsəd Əhmədov, oftalmoloq Araz İbrahimov, fizioterapevt Mehman Əliyev tərəfindən həyata keçirilib.

**Mehman MƏMMƏDOV**

## "Muzeylər mədəni irsimizdir" mövzusunda tədbir

*Dekabrın 13-də Şahbuz şəhərindəki "Araz" kinoteatrında Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan müəssisələrin gəncləri üçün "Muzeylər mədəni irsimizdir" mövzusunda mühazirə oxunub.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin yaradıcı gənclərlə iş üzrə baş məsləhətçisi Kənan Tağızadə açıb. Bildirib ki, Azərbaycanda muzey işinin, muzeyşünaslığın inkişafı ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra mümkün olub. O həmçinin mədəni irs, musiqi tariximizlə bağlı keçirilən tədbirlərin əhəmiyyətindən də danışıb.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov "Muzeylər mədəni irsimizdir" mövzusunda çıxış edərək bildirib ki, belə mədəniyyət müəssisələri tarixi həqiqətləri təcəssüm etdirir, mədəni irsi qoruyur, tədqiq və təbliğ edir.

Qeyd edilib ki, muxtar respublikamızda muzey işinin 100 ilə yaxın tarixi vardır.

Çıxışda muxtar respublikamızda muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində görülən işlərdən də geniş söhbət açılıb.

**Əli RZAYEV**

## Sağlamlıq imkanları məhdud uşaqlar medallar qazanıblar

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların idman həyatına inteqrasiyası daim diqqət mərkəzindədir. Hər il sağlamlıq imkanları məhdud uşaqlar arasında keçirilən yarışlar onların idmana kütləvi cəlbinə şərait yaradır. Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası mütəmadi olaraq müxtəlif idman növləri üzrə yarışlar təşkil edir, idmançıların respublikamızda keçirilən müxtəlif səviyyəli yarışlarda iştirakları təmin olunur.

Dekabrın 11-də Azərbaycan Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə Sumqayıt şəhərində III Uşaq Paralimpiya Oyunları keçirilib. Qolbol, üzgüçülük, boccia, tennis və cüdo idman növləri üzrə Naxçıvan Muxtar Respublikasından sağlamlıq imkanları məhdud 12 uşaq iştirak edib.

Yarışda muxtar respublikamızı təmsil edən paralimpiyaçılar layiqli yerləri tutublar. Belə ki, üzgüçülük idman növü üzrə Zeynəb İbrahimli keçirilən yarışın qalibi, tennis idman növü üzrə Mətin Bağırov və Nihal İmanov, boccia idman növü üzrə Zahir İbrahimov və Gilə Yunisova, cüdo idman növü üzrə Səfər Məmmədov və qolbol idman növü üzrə qrup yarışında 3 həmyerlimiz ikinci, üzgüçülük idman növü üzrə Hüseyn Abdullayev, boccia idman növü üzrə isə İlqar Yunisov üçüncü olublar.

Sonda qalib idmançılarımıza medal, diplom və hədiyyələr təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Naxçıvan şəhəri, Əcəmi Naxçıvani küçəsi, bina 2, mənzil 51-ə dair 104011000199-05101-093025 reyestr nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1016